**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm:
Tədris məsələləri üzrə prorektor v.i.e:
__________dos. Zaur Məmmədov
"____" _______ 2025-ci il

**Fənn sillabusu**

**İxtisas: 6004006-"Marketinq", 6004005-"Maliyyə", 6004008-Muhasibat, 6004002-"Biznesin idarəedilməsi", 6004004- "İqtisadiyyat".**

**Fakultə:** "İqtisadiyyat və idarəetmə"

**Kafedra:** "İqtisadiyyat və innovativ idarəetmə"

1. **Fənn haqqında məlumat :**

**Fənnin adı:** Menecment (İşçi tədris proqramı: Lənkəran Dövlət Universitetinin 22 dekabr 2025-ci il tarixli 04 saylı protokolu ilə təsdiq edilmişdir).

**I.Fənn haqqında məlumat :**

**Fənnin kodu:** İPF-B09

**Tədris ili:** IV (2025-2026). Semestr: VIII

**Tədris yükü cəmi**: 210 saat. Auditoriya yükü-24 saat: (Mühazirə 14 saat, seminar-10 saat).

**Təhsilalma forması:** Qiyabi

**Tədris dili:** Azərbaycan dili

**AKTS üzrə kredit:** 7

**Auditoriya № :**

**Saat :**

**II.Müəllim haqqında məlumat:**

**Adı, soyadı, elmi dərəcəsi:** *i.f.d. Fərid Xankişiyev*

**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Füzuli küç., 170 a, 1 saylı korpus.

**Məsləhət saatı:** I-II günlər: saat $12^{00}$-$13^{00}$

**E-mail ünvanı:** *ferid_khan@mail.ru*

**III. Tövsiyyə olunan dərslik və dərs vəsaitləri:**

1.Manafov Q.N. "Sahibkarlıq nəzəriyyəsi". Bakı-2011.
2.Həsənov H.S. "Korporativ idarəetmənin təməl daşları". Bakı-2012
3.Ə.H.Ələkbərov, M.Ə.Vəliyev, S.H.Pürhani. Menecment. Bakı-2013.
4.Abbasov İ.M., Sadıqov R.F. "Menecment". Bakı-2013.
5.Л.С. Ружанской, И. В. Котляревской "Общий Менеджмент" Екатеринбург-2017.
6.Кулешова А. А., "Основы Менеджмента" – Харьков-2013.
7. David S. Bright, Wright, Anastasia H. CPrinciples of managment, Texas-2019.

**IV.Prerekvizitlər:** Fənnin tədrisi üçün ilkin olaraq "Mikroiqtisadiyyat" və "Makroiqtisadiyyat" kimi fənlərin tədrisi zəruridir.

**V.Korerekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda "Yumşaq bacarıqlar" fənninin tədrisinə ehtiyac vardır.

**VI.Fənnin təsviri və məqsədi**: "Menecment" fənni dedikdə, fənlərarası elmi biliklər sahəsi kimi başa düşülür. Çünki elə bir sahə yoxdur ki, orada idarəetməyə ehtiyac olmasın.

Məsələn, maliyyə iqtisadiyyatın bir sahəsidir və onun menecmenti də vardır. Həmçinin istehsal, marketinq, innovasiya, kommersiya, informasiya və s. Menecment xalq təsərrüfatının, onun ayrı-ayrı sahələrinin idarə edilməsinin əsasını təşkil edir. Menecment çox məsuliyyətli bir fəaliyyətdir. Bu məqsədlə, idarəetmənin təsirli və məqsədyönlü olması üçün idarə edən şəxslərin bilik və bacarıqlara malik olması vacibdir.

Tələbələrə idarəetmənin tarixi və məktəbləri haqqında məlumatlar verilməsi, menecerlərin funksiyalarından, idarəetmə metodlarından, idarəetmədə informasiya və kommunika-siyanın önəmindən və s.-dən bəhs edilməsi nəzərdə tutulur. Həmçinin idarəetməyə elmi cəhətdən yanaşma, müəssisələrin təşkilati-quruluşu, idarəetmə üsulu və üslubu, menecmentin prinsipləri, təsər-rüfat subyektlərinin təşkilati-hüquqi formaları və onların idarə olunması haqqında məlumatlar verilir. Menecmentə elmi yanaşma idarəetmə fəaliyyətinə, idarəetmə prosesinə, onun funksiya, metod və prin-siplərinə elmi-nəzəri baxışların məcmusundan ibarətdir. Kursun tədrisi zamanı menecmentin alt sistemləri elmi cəhətdən şərh olunur, idarəetmə prosesinin həyata keçirilməsi texnologiyası izah edilir, bu zaman tələb olunan idarəetmə vasitələri və alətlərinin təsviri verilir.

**VII.Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*

*-9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*

*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

*-7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*

*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*

*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*

*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

*-3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*

*-1-2 bal- tələbənin mövzudan* qismən xəbəri var.

-0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |

| | | | |
|---|---|---|---|
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX.Davranış qaydalarının pozulması:** *Tələbə Universitetin daxili nizam–intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.*

**X.Təqvim planı**: *Mühazirə 14 saat, seminar 10 saat,* ***Cəmi: 24 saat***

| № | Keçirilən mühazirə mövzularının məzmunu | Mühazirə | | Seminar | |
|---|---|---|---|---|---|
| | | Saat | Tarix | Saat | Tarix |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1. | **Mövzu 1. "Menecment" anlayışının mahiyyəti və xarakterik xüsusiyyətləri.İdarəetmə nəzəriyyələrinin təkamülü. İdarəetmənin təşkili formaları və üslubları**<br><br>**Plan:**<br>1.Menecmentin məqsədi, vəzifələri və xarakterik xüsusiyyətləri<br>2.Menecer: tipologiya və ümumi psixoloji tələblər<br>3.Menecmentdə yanaşmalar<br>4.İdarəetmə məktəbləri<br>5.İdarətmə prinspləri və onların xüsusiyyətləri<br>6.İdarəetmənin növləri və ona təsir edən amillər<br>7.İdarəetmə səviyyələri<br>8.İdarəetmənin formal və qeyri-formal təşkili<br>9.İdarəetmə üslubları | **2** | | **2** | |
| 2. | **Mövzu 2 : İdarəetmənin əsas və köməkçi funksiyaları. İdarəetmə metodları və onun effektivliyində risklərin önəmi. Kommunikasiya prosesi və onun təsnifləşdirilməsi**<br><br>**Plan:**<br>1.İdarəetmənin planlaşdırma və təşkiletmə funksiyaları<br>2.İdarəetmənin motivləşdirmə funksiyası<br>3.İdarəetmənin nəzarət və marketinq funksiyaları<br>4.İdarəetmənin köməkçi funksiyaları<br>5.İdarəetmədə metod anlayışı və iqtisadi metod<br>6.İnzibati və sosial-psixoloji metod<br>7.İdarəetmə effektivliyində risklərin önəmi<br>8.Kommunikasiya anlayışı və onun növləri<br>9.Təşkilati kommmunikasiya | **2** | | **2** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3. | **Mövzu 3: Kadr ehtiyatlarının idarəedilməsinin təşkili. İdarəetmədə tərbiyə və etikanın önəmi. Komanda işi, rəhbərlik və liderlik.**<br><br>**Plan:**<br><br>1.Kadr xidməti fəaliyyətinin menecment sistemində yeri və rolu<br>2.Kadr ehtiyatlarının idarə olunması<br>3.İdarəetmədə tərbiyə komponentləri<br>4.İşgüzar ünsiyyət və işgüzar etikanın universal prinspləri<br>5.Stres və münaqişə hallarının idarə edilməsi<br>6.Komanda işinin effektivliyi<br>7.Komandanın inkişaf mərhələləri<br>8.Rəhbərin keyfiyyət göstəriciləri<br>9.Liderlik anlayışı və fərqləndirici xüsusiyyətləri | 2 | | 2 | |
| 4. | **Mövzu 4.Firmanın strategiyası və onun təhlili. İstehsalatda idarəetmə prosesinin təşkili**<br><br>**Plan:**<br><br>1. Strategiyaların SWOT və GETS təhlil modelləri<br>2. Firmanın strategiyasının seçilməsi<br>3. Strategiyanın işlənilməsi<br>4. Mövcud strategiyanın səmərəlilik meyarları<br>5. İstehsalın idarəedilməsi<br>6. Keyfiyyətin idarə edilməsi<br>7.İdarəetmə prosesi və onun həyata keçirilməsi texnologiyası<br>8.İdarəetmə qərarlarının mahiyyəti və xüsusiyyətləri | 2 | | 2 | |
| 5. | **Mövzu 5. Menecerlik qabiliyyəti və onun xarakterik xüsusiyyətləri. Daxili və xarici etik problemlərinin idarə edilməsi.**<br><br>**Plan:**<br><br>1.Menecmentdə rəhbər anlayışı<br>2.Müasir dövrdə rəhbər anlayışı<br>3.Menecerin mövcud resurslardan səmərəli istifadəsi<br>4.Korporasiya daxili davranış<br>5.İşçilərin əməl etməli olduqları etik davranışlar<br>6.Korporasiyanın xarici etik problemləri | 2 | | | |
| 6. | **Mövzu 6. Maliyyə,innovasiya və investisiya menecmenti. Satış və reklam fəaliyyətinin idarə olunması xüsusiyyətləri.**<br><br>**Plan:** | 2 | | 2 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | 1.Maliyyə menecmentinin funksiyaları və maliyyə planları<br>2.İnnovasiya menecmenti və bu fəaliyyətinin əsas mərhələləri<br>3.İnvestisiya menecmenti.<br>4.Satış prosesinin məzmunu<br>5.Satış prosesinin təşkili<br>6.İstehlak bazarında reklam fəaliyyətinin təşkili<br>7.Reklam fəaliyyətinin effektivliyi | | | | |
| 7. | **Mövzu 7.İdarəetmədə sosial məsuliyyətin önəmi. Müasir dövrdə idarəetmə istiqamətləri**<br><br>**Plan:**<br><br>1.Sosial məsuliyyətin mahiyyəti və məzmunu<br>2.Daxili korporativ sosial məsuliyyətin növləri<br>3.Xarici korporativ sosial məsuliyyət<br>4.Müəssisələrin sağlamlaşdırılması və iflasının idarə olunması<br>5.Elmi-texniki tərəqqinin idarə olunması<br>6.Müasir idarəetmə (menecment) sistemində marketinq | **2** | | | |
| | **Cəmi:** | **14** | | **10** | |

**XI.Fənn üzrə tələblər:** Tələbə fənnin öyrənilməsi zamanı bacarmalıdır: idarəetmə zamanı rəhbərin sahib olmalı olduğu üstün keyfiyyətləri öyrənmək; rəhbərin qəbul etdiyi qərarların müsbət və mənfi tərəflərini təhlil etmək ; kadr potensilanın düzgün idarə edilməsinə nail olmaq.

**XII. Fənn üzrə təlimin nəticələri:**

-Menecmentin əsas funksiyalarını və menecerlərin rollarını təsvir etmək ;
-Menecerlərin planlaşdırma prosesini təşkilatın missiyası , vizyonu və dəyərləri ilə necə uyğunlaşdığını izah etmək ;
-Ümumi təşkilatı qurluşları və hər birinin üstünlük və mənfi cəhətlərini müəyyənləşdirmək ;
-Təşkilatlardakı qrup və komanda dinamikasını anlamaq ;
-Təşkilat mədəniyyətini və müxtəlifliyinin faydalarını anlamaq ;
-Güclü və zəif liderliyi və liderlik növlərini tanımaq ;

**XIII.Tələbələrin fənn haqqında fikirlərinin öyrənilməsi : ------------------------------------------------------------------------ .**

**XIV. Kollokvium sualları:**

**Kollokvium sualları :**

1.Menecer: tipologiya və ümumi psixoloji tələblər
2.İdaretmə prinspləri və onların xüsusiyyətləri
3.İdarəetmənin növləri və ona təsir edən amillər
4.İdarəetmənin planlaşdırma və təşkiletmə funksiyaları
5.İdarəetmənin motivləşdirmə funksiyası

6.Kommunikasiya anlayışı və onun növləri
7.Kadr xidməti fəaliyyətinin menecment sistemində yeri və rolu
8.Komandanın inkişaf mərhələləri
9. Strategiyanın işlənilməsi
10. İstehsalın idarəedilməsi

**XV.İmtahan sualları:**

1.Menecer: tipologiya və ümumi psixoloji tələblər
2.Menecmentdə yanaşmalar
3.İdaretmə prinspləri və onların xüsusiyyətləri
4.İdarəetmənin növləri və ona təsir edən amillər
7.İdarəetmə səviyyələri
8.İdarəetmənin planlaşdırma və təşkiletmə funksiyaları
9.İdarəetmənin motivləşdirmə funksiyası
10.İdarəetmədə metod anlayışı və iqtisadi metod
11.İdarəetmə effektivliyində risklərin önəmi
12.Kommunikasiya anlayışı və onun növləri
13.Kadr xidməti fəaliyyətinin menecment sistemində yeri və rolu
14.Kadr ehtiyatlarının idarə olunması
15.İşgüzar ünsiyyət və işgüzar etikanın universal prinspləri
16.Komanda işinin effektivliyi
17.Komandanın inkişaf mərhələləri
18.Liderlik anlayışı və fərqləndirici xüsusiyyətləri
19. Firmanın strategiyasının seçilməsi
20. Strategiyanın işlənilməsi
21. İstehsalın idarəedilməsi
22. Keyfiyyətin idarə edilməsi
23.İdarəetmə prosesi və onun həyata keçirilməsi texnologiyası
24.Müasir dövrdə rəhbər anlayışı
25.Korporasiya daxili davranış
26.Korporasiyanın xarici etik problemləri
27.Maliyyə menecmentinin funksiyaları və maliyyə planları
28.İnnovasiya menecmenti və bu fəaliyyətinin əsas mərhələləri
29.Satış prosesinin məzmunu
30.Satış prosesinin təşkili
31.Reklam fəaliyyətinin effektivliyi
32.Daxili korporativ sosial məsuliyyətin növləri
33.Xarici korporativ sosial məsuliyyət
34.Müəssisələrin sağlamlaşdırılması və iflasının idarə olunması
35.Müasir idarəetmə (menecment) sistemində marketinq

**"Menecment"** fənni üzrə fənninin sillabusu **6004006-"Marketinq", 6004005-"Maliyyə", 6004008-Muhasibat, 6004002-"Biznesin idarəedilməsi", 6004004- "İqtisadiyyat"** ixtisasları üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.

Sillabus "*İqtisadiyyat və innovativ idarəetmə*" kafedrasında müzakirə edilərək təsdiq olunmuşdur (22 dekabr 2025-ci il tarixli, protokol №4).

**Kafedra müdiri v.i.e. :** **dos. G.T.Əliyeva**

**Fənn müəllimi:** **dos., i.f.d. F.X.Xankişiyev**